2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2019-cu il tarixli 29 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 29 dekabr 2019-cu il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Bünyadlı bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Şükürov Sevindik Talıb oğlu, Əsədov Nicat Feyzi oğlu və Əsədov Eldəniz Fətullah oğlu 26 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək səsvermə günü Bünyadlı kəndində yerləşən 38 saylı seçki məntəqəsində qanun pozuntusuna yol verildiyini bildirmişlər.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Namizədlər öz müraciətlərində göstərmişlər ki, səsvermə günü onlar yüksək səs topladığı halda, onlardan az səs toplayan namizədlər bələdiyyəyə üzv seçilmişlər.

Araşdırma ilə səsvermə günü 80 saylı İmişli-Beyləqan seçki dairəsinin 38 saylı seçki məntəqəsində baş verməsi iddia edilən qanun pozuntusu təsdiqini tapmamış və müəyyən edilmişdir ki, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsininj tələblərinə uyğun olaraq tərtib olunmuşdur. Səslərin sayılmasında hər hansı bir qanun pozuntusuna yol verilmədiyi səslərin sayılmasını müşahidə etmiş müşahidəçilər M.C.Rüstəmovun, C.Ə.Məmmədovun, M.Ə.Əliyevin, V.Ə.Məmmədovun, A.Ə.Əliyevin, A.R.Rüstəmovun, həmçinin bələdiyyə üzvlüyünə seçilməmiş digər namizədlər R.Ə.Əliyevin, Ş.Ə.İmanovun, V.M.Heydərovun, Q.Ş.Əliyevin və eləcədə komissiyanın katibi Ə.Ş.Əhmədovun, komissiya üzvləri L.Y.Hüseynovun, T.Ə.Abbaslının izahatları ilə təsdiq olunur.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Bünyadlı bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Şükürov Sevindik Talıb oğlu, Əsədov Nicat Feyzi oğlu və Əsədov Eldəniz Fətullah oğlunun 26 dekabr 2019-cu il tarixli 29 saylı müraciəti təmin olunmasın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova